AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NAXÇIVAN BÖLMƏSİ

*Əlyazması hüququnda*

**NOVRUZƏ QEYİS QIZI ADİLOVA**

# NAXÇIVAN REGİONUNUN ƏMƏK BAZARI VƏ ƏHALİ MƏŞĞULLUĞUNUN YÜKSƏLDİLMƏSİ İSTİQAMƏTLƏRİ (AQRAR SAHƏNIN MATERIALLARINA ƏSASƏN)

**İxtisas: 5311.01 – Müəssisələrin təşkili və idarə olunması**

**İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**NAXÇIVAN – 2014**

Dissertasiya işi Odlar Yurdu Universitetinin “İqtisadiyyat və menecment” kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Tofiq Əvəz oğlu Quliyev**
iqtisad üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Asif İsmayıl oğlu Şirəliyev**
iqtisad üzrə elmlər doktoru, professor

**Habil Hüseyn oğlu Aslanov**
iqtisad üzrə fəlsəfə doktoru, dosent

**Aparıcı təşkilat:** Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu “Əmək ehtiyyatlarından istifadə və kəndin sosial infrastrukturu problemləri”şöbəsi

Müdafiə “_15__” “_03_” 2014-cü il saat $11^{00}$-da AMEA Naxçıvan Bölməsinin nəzdində yaradılmış D.01.211 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan**: AZ 7000, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76, AMEA Naxçıvan Bölməsi, əsas bina, akt zalı.

Dissertasiya işi ilə AMEA Naxçıvan Bölməsinin Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat “____” ____________ 2014-cü ildə göndərilmişdir.

**D.01.211 Dissertasiya Şurasının**
**elmi katibi:** **E.A.Şıxəliyev**
**tarix üzrə fəlsəfə doktoru, dosent**

## DİSSERTASİYA İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Əmək bazarı əhalinin, o cümlədən kənd əhalisinin tərkibinin kəmiyyət və keyfiyyətcə dəyişməsini əhali məşğulluğunun araşdırılmasını, işçi qüvvəsinin formalaşmasını və onlardan daha səmərəli istifadə edilməsini tələb edir. Bu baxımdan qeyd edilən məsələlər bazar münasibətlərinə uyğun olaraq respublikanın ayrı-ayrı bölgələrində geniş tədqiq edilməlidir. Digər tərəfdən müxtəlif təsərrüfat formaları şəraitində əmək ehtiyatlarından istifadəyə dair metodiki məsələlər yenidən araşdırılıb, əmək ehtiyatlarının sərhədlərini və əhalinin məşğulluq dərəcəsini müəyyənləşdirmək lazımdır. Eyni zamanda tədqiqat apardığınız Naxçıvan regionunda əmək bazarının tənzimlənməsinə, iqtisadi fəal əhalinin fəallığının artırılmasına həmçinin əhalinin məşğulluğunun yüksəldilməsinə dair təkliflərin hazırlanması çox vacib bir vəzifə kimi qarşıda durur.

Azərbaycanda məşğulluqla bağlı olan problemlərin təhlili göstərir ki, bu problem bazar iqtisadiyyatının mühüm məsələlərindəndir və onu həll etmədən səmərəli iqtisadi fəaliyyəti nizamlamaq mümkün deyildir.

Kənd təsərrüfatı iqtisadiyyatımızın əsas sahələrindən biridir. 1995-ci ildən başlanan iqtisadi islahatlar nəticəsində keçmiş inzibati amirlik iqtisadi sistemindən miras qalmış bütün mexanizmlər öz məntiqi sonuna çatdı və aqrar sahədə mövcud olmuş bütün təsərrüfat sistemi öz yerini müasir bazar münasibətlərinə əsaslanan hüquqi-iqtisadi mexanizmlərə verdi. Bu islahatlar milli iqtisadiyyatımızın təbii və həm də köklü dəyişikliklər əsasında tamamilə yeni olan münasibətlər əsasında inkişaf etməsinə gətirib çıxardı. Bu baxımdan kənd təsərrüfatının bazar iqtisadi sistemi şəraitində yenidən qurulması, buradakı təsərrüfat formalarının, mülkiyyət münasibətlərinin və ən başlıcası isə, iqtisadi münasibətlərin əlverişliliyinin düzgün qiymətləndirilməsi vacib məsələyə çevrilmişdir. Yeni təsərrüfatçılıq münasibətlərinin bərqərar edilməsi şəraitində aqrar islahatların zəruriliyi aqrar sektorun, əhalinin maddi nemətlərə olan tələbatının böyük hissəsini ödəyən bir sahə olmaqla bərabər, eyni zamanda işsizliyin azaldılması və məşğulluğun təmin edilməsi istiqamətində də mühüm potensiala malik bir sahə olduğunu sübut etdi.

2001-ci ildə Azərbaycan Respublikasında qəbul olunmuş "Məşğulluq haqqında" qanun şərh olunmuşdur. Heç təsədüfi deyildir ki, Azərbaycan Respublikasının Prezidenti 24 noyabr 2003-cü il tarixli "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri" haqqında 4 saylı fərmanında əhali məşğulluğunun

yüksəldilməsinə bir daha diqqət yetirilmişdir. Burada işsiz əhalini işlə təmin etmək üçün 900 min yeni iş yerlərinin açılmasına və bu iş yerlərində işləyəcək işçilərin keyfiyyət tərkibinin yaxşılaşdırılmasına dair tədbirlər irəli sürülmüşdür. Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 25 avqust tarixli sərəncamı ilə təsdiq edilmiş 2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair dövlət proqramında kənd təsərrüfatında müasir tələblərə cavab verən kadr potensialının hazırlanması, əhalinin məşğulluğun təmin edilməsi, işsizliyin aradan qaldırılması və əhalinin həyat səviyyəsinin yüksəldilməsi yolları irəli sürülür.

**Problemin öyrənilmə səviyyəsi.** Bazar iqtisadiyyatı şəraitində aqrar sahədə əmək bazarı, əmək ehtiyatlarının təkrar istehsalı, məşğulluğunun təmin edilməsi və bu sahənin kadr təminatı problemlərin öyrənilməsində xarici iqtisadçı alimlərdən C.Keyns, S.P.Samuelson, E.E.Rumyantseva, V.F.Maşenkovu, A.V.Soskiyevi, E.Alfinsonu, Q.Muyurdalı, B.Ilini Y.T.Buzilovu, B.P.Pankovu, V.Radayev, Y.Yakoveç, V.İvançenko, E.Maneviç, Azərbaycan alimlərindən Z.Ə.Səmədzadə, A.A.Nadirov, Ə.Ə.Mahmudov, T.Ə.Quliyev, T.S.Vəliyev, S.V.Salahov, Ə.Q.Əlirzayev, Ş.M.Muradov, V.M.Niftullayev, İ.V.Əhmədov, İ.Ş.Qarayev, A.T.Əhmədov, M.H.Meybullayev, R.K.İskəndərov, A.Ş.Şəkərəliyev, A.F.Abbasov və başqalarının böyük rolu olmuşdur.

Dissertasiya işində Naxçıvan MR timsalında məşğulluq probleminin həllində aqrar sektorun rolu və onun təkmilləşdirilməsi yolları ayrıca tədqiqat obyekti kimi araşdırılmamışdır. Problemlə bağlı bir sıra nəzəri və metodoloji məsələlər elmi istiqamətdə öz həllini hələ də tapmamışdır. Ona görə də məşğulluq probleminin həllində aqrar sektorun rolunun tədqiq edilməsi və elmi cəhətdən əsaslandırılmasına ehtiyac vardır. Bütün bunlar dissertasiya işinin aktuallığını və buradan irəli gələn məqsəd və vəzifələrin müəyyənləşdirilməsini şərtləndirmişdir.

Tədqiqat işində qeyd edilən alimlərin əsərlərinə geniş münasibət bildirilmişdir. Eyni zamanda müəyyən edilmişdir ki, yuxarıda adı çəkilən probleminin regional sahəvi aspektləri bazar münasibətləri baxımından hələ çox az öyrənilmişdir. Odur ki, sahədə kompleks tədqiqatın aparılması zamanın tələbindən irəli gəlir. Belə ki, bazar münasibətlərinin inkişafı və təsərrüfatların iqtisadi müstəqilliyinin genişlənməsi ilə əlaqədar olaraq məşğulluq və işsizliyin yeni problemləri mövcuddur. Belə ki, hazırda respublikanın ayrı-ayrı iqtisadi rayonlarında istehsalın xüsusiyyətləri onun iqtisadi və inkişaf səviyyəsi, istehsal vasitələri ilə təmin olunma vəziyyəti və s. arasında kəskin fərqlər vardır və bunlar öz növbəsində işçi

qüvvəsindən istifadəyə əhali məşğulluğunun yüksəldilməsinə həlledici təsir göstərir. Bütün qeyd olunan məsələlər tədqiqat mövzusunun seçilməsinin əsasını təşkil etmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi kənd əhalisinin inkişaf dinamikasını öyrənməkdən, əmək ehtiyatlarından istifadənin müasir vəziyyətini təhlil etməkdən və iqtisadi fəal əhalidən daha səmərəli istifadə etməkdən, iş vaxtı fondundan istifadənin yaxşılaşdırılmasına aid təkliflər hazırlamaqdan əhali məşğulluğunun müasir vəziyyətini geniş təhlil edib, məşğulluğun yüksəldilməsinə dair təkliflər hazırlamaqdan ibarətdir.

Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr yerinə yetirilmişdir:

– ölkə və Naxçıvan MR-in əhalisinin artım dinamikasının təhlili və təbii hərəkətinin öyrənilməsi;

– əhalinin cins və yaş strukturunda gedən proseslərin müasir inkişaf meyllərinin müəyyənləşdirilməsi;

– kənddə əmək ehtiyatlarının dəyişmə meyllərinin araşdırılması;

– əmək ehtiyatlarının bölgüsünün müəyyənləşdirilməsi və əmək ehtiyatlarından istifadə səviyyəsi və onların kəmiyyət və keyfiyyətcə dəyişməsinin qanunauyğunluqları;

– adı çəkilən regionda əmək ehtiyatlarının fəallığının yüksəldilməsi və onların istehsala geniş cəlb edilməsi istiqamətləri, əməkdən və iş vaxtı fondundan istifadə səviyyəsi;

– kənd təsərrüfatının işçi qüvvəsinə tələbatının müəyyənləşdirilməsi;

– əmək bazarının mahiyyəti, məşğulluq və işsizliyə münasibətlərin araşdırılması;

– Naxçıvan Regionunda əhali məşğulluğunun müasir vəziyyətinin təhlili;

– həmin region üzrə əhali məşğulluğunun səviyyəsinin müəyyənləşdirilməsi;

– əhali məşğulluğunun yüksəldilməsinin istiqamətlərinin müəyyənləşdirilməsi və məşğulluğunun yüksəldilməsinə aid təkliflərin hazırlanması;

– yeni iş yerlərinin yaradılmasına dair ehtiyat mənbələrinin müəyyənləşdirilməsi;

– müxtəlif təsərrüfat formalarının inkişafının əhali məşğulluğuna təsirinin müəyyənləşdirilməsi.

**Tədqiqatın obyekti.** Tədqiqat obyekti kimi, bütövlükdə Naxçıvan MR iqtisadiyyatının ən mühüm sahələrindən biri hesab olunan aqrar sahə və bu sahədə fəaliyyət göstərən müxtəlif təşkilati-hüquqi formalı təsərrüfat

qurumları seçilmişdir

**Tədqiqatın predmeti**. Tədqiqatın predmetini aqrar islahatlar və dinamik inkişaf şəraitində regionda məşğulluq səviyyəsinin yüksəldilməsinin nəzəri və təcrübi məsələlərinin öyrənilməsi təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji əsasları.** Tədqiqatın aparılmasının nəzəri əsaslarını Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikası Prezidentinin məşğulluğun inkişafı ilə bağlı təsdiq etdiyi Dövlət Proqramları, imzaladığı fərmanlar, Azərbaycan Respublikası Milli Məclisinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin məşğulluğun inkişafına dair qəbul etdiyi qanunlar, normativ-hüquqi sənədlər, habelə problemlə bağlı ölkə və xarici iqtisadçı alimlərin elmi-tədqiqat işlərinin nəticələri təşkil edir.

Elmi tədqiqat işində abstraksiya, dialektik, tarixi, məntiqi, müşahidə, müqayisə, iqtisadi təhlil, analiz, sintez və digər iqtisadi-statistik üsullardan istifadə olunmuşdur. Tədqiqat prosesində ölkəmizin aqrar sahədə müəyyən etdiyi iqtisadi siyasətin tənzimlənməsi ilə bağlı müvafiq sənədlərə istinad edilmişdir.

**Tədqiqatın informasiya bazası.** Tədqiqat işində Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Naxçıvan MR Kənd Təsərrüfatı Nazirliyinin, Dövlət Statistika Komitəsinin icmal-hesabat məlumatlarından, həmçinin Azərbaycan Respublikası Maliyyə Nazirliyinin, Azərbaycan Respublikası Mərkəzi Bankının, müxtəlif kredit təşkilatlarının, aqrar sahədə təsərrüfat subyektlərinə müxtəlif xidmətlər göstərən müəssisə və təşkilatların, digər qurumların statistik-hesabat materiallarından, uçot-hesabat sənədlərindən istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarət olmuşdur:

– Naxçıvan regionunda kənd əhalisinin dinamikası geniş təhlil edilmiş, ona təsir edən amillər müəyyənləşdirilmişdir;

– respublikada, o cümlədən Naxçıvan iqtisadi rayonlarda işçi qüvvəsindən istifadənin müasir vəziyyəti öyrənilmiş və onlardan daha səmərəli istifadə olunmasına dair təkliflər irəli sürülmüşdür;

– kənd təsərrüfatında iş vaxtı fondundan istifadənin və mövsümlülüyünün yumşaldılmasının əmək məhsuldarlığına təsiri müəyyənləşdirilmişdir;

– müxtəlif təsərrüfat formalarının inkişafının işçi qüvvəsindən istifadə təsiri elmi cəhətdən əsaslandırılmışdır;

– kənd təsərrüfatının işçi qüvvəsinə tələbatı müəyyənləşdirilmiş və onun parametri sahələr üzrə proqnozlaşdırılmışdır;

– əmək ehtiyatlarının məşğulluğunun müasir vəziyyəti geniş təhlil edilmiş və Naxçıvan regionunda, onların məşğulluq səviyyəsi müəyyənləşdirilmişdir;

– bazar münasibətləri şəraitində əmək ehtiyatlarının məşğulluğunun yüksəldilməsinin əsas istiqamətləri işlənib hazırlanmışdır.

**Tədqiqatın təcrübi əhəmiyyəti.** Tədqiqatın təcrübi əhəmiyyəti aşağıdakılardan ibarətdir:

– əmək bazarının nəzəri məsələləri ümumiləşdirilmiş, onun mahiyyəti formalaşma xüsusiyyətləri və inkişaf meylləri şərh edilmişdir;

– müxtəlif təsərrüfat formalarının və fərdi əmək fəaliyyətinin məşğulluğun yüksəldilməsinə təsiri şərh edilmişdir;

– kənd təsərrüfatında fəaliyyət göstərən müxtəlif təsərrüfatçılıq qurumlarında əmək ehtiyatlarından istifadənin səmərəliliyinin yüksəldilməsinə dair təkliflər hazırlanmışdır;

– respublikanın iqtisadi rayonlarında, əsasən Naxçıvan İqtisadi rayonunda əmək ehtiyatlarının məşğulluğunu yüksəltmək məqsədi ilə yeni iş yerlərinin yaradılmasına aid elmi cəhətdən əsaslandırılmış təkliflər hazırlanmışdır.

Praktiki əhəmiyyət baxımından hazırlanmış tövsiyə və təkliflər əhəmiyyətli olub, respublikada hazırlanan məqsədli proqramlarda istifadə edilə bilər. Eyni zamanda konkret iqtisadi rayonlar üçün hazırlanmış təkliflərin tətbiqi kənd əhalisinin məşğulluq səviyyəsini xeyli yüksəldər.

**İşin aprobasiyası və nəticələrin tətbiqi.** Dissertasiyanın əsas müddəaları və işdə irəli sürülən əməli təkliflər Azərbaycan Respublikası Baki şəhəri 11 oktyabr 2012-ci il tarixdə Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun 50 illik yubileyinə həsr olunmuş “Aqrar iqtisadiyyatının aktual problemləri” mövzusunda Beynəlxalq elmi praktik konfransında “Əmək bazarında məşğulluq və əmək ehtiyyatlarının xarakterik xüsusiyyətləri”, 27-28 iyun 2012-ci il AR Bakı şəhəri “Milli iqtisadiyyatın inkişafı və səmərəliliyinin yüksəldilməsi mövzusunda Beynəlxalq elmi praktik konfransında” Əmək bazarında əhali məşğulluğunun yüksəldilməsinin əsas istiqamətləri”, 27-28 may 2012-ci ildə Ukrayna Respublikası Dnepropetrovsk şəhərində Международная научно-практическая конференция “Рынок труда и воспроизводства квалифицированных рабочих в сельском хозяйстве”, Azərbaycan Respublikası Bakı şəhəri Odlar Yurdu Universiteti 10 may 2013-cü ildə Heydər Əliyevin 90 illiyinə həsr olunmuş “Azərbaycan 2020 gələcəyə

baxış" Beynəlxalq elmi praktik konfransında"Regionlarda aqrar sahənin dinamik inkişafı və əmək ehtiyyatlarının səmərəli istifadə olunması" və Azərbaycan Respublikası Bakı şəhəri Odlar Yurdu Universiteti 25 may 2013-cü ildə Akademik Əhməd Əkbər oğlu Mahmudovun anadan olmasının 90 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi-praktik konfransında" Роль малого предпринимательства в решении проблем занятости" adlı məruzələrdə öz əksini tapmışdır. Dissertasiya işi ilə bağlı 16 elmi əsər (o cümlədən, ikisi xaricdə olmaqla) dərc edilmişdir.

Tədqiqat işinin nəticələri AMEA İqtisadiyyat İnstitutu istifadə üçün qəbul edilmişdir (Arayış № 043/0-1074 25 dekabr 2013-c il).

Dissertasiya işinin əsas müddəaları, onun nəzəri-metodoloji nəticələri və elmi cəhətdən əsaslandırılmış tövsiyələri müəllif tərəfindən çap olunmuş 16 elmi məqalə və tezisdə öz əksini tapmışdır.

**Tədqiqatın quruluşu və həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və təkliflərdən ibarət olub, istifadə olunmuş 134 adda ədəbiyyat siyahısı verilmişdir. İş kompüter yazısı ilə 158 səhifədən ibarət olmaqla 27 cədvəl, 2 diaqram və 2 sxem əhatə edir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı əsaslandırılır, problemin öyrənilmə səviyyəsi, tədqiqatın məqsədi, vəzifələri, obyekti, metodoloji və nəzəri əsasları, informasiya mənbəyi, tədqiqatın üsulları, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti şərh edilir, işin aprobasiyası və strukturu haqqında məlumat verilir.

Dissertasiya işinin birinci fəsli **"Müasir dövrdə əmək bazarı və məşğulluğun nəzəri-metodoloji əsasları"** adlanır. Bu fəsildə əmək bazarının formalaşmasının nəzəri aspektləri haqqında müasir dövrün tanınmış alimlərinin fikir və mülahizələri öyrənilib ümumiləşdirilməklə müəllifin mövqeyi açıqlanmış, işçi qüvvəsinin xarakterik xüsusiyyətlərinin və məşğulluğun tədqiqinin metodoloji məsələləri araşdırılmışdır.

Bu fəsildə eləcə də əmək bazarının müxtəlif modelləri və seqmentləri, habelə iş qüvvəsinin tələb və təklifi arasındakı münasibətlər, məşğulluq və işsizlik anlayışlarının mahiyyəti tədqiq edilib öyrənilmişdir.

Dissertasiya işinin birinci fəslində müxtəlif iqtisadçılar tərəfindən məşğulluq anlayışına müxtəlif yanaşmalar irəli sürülmüşdür. Bu yanaşmalar ümumiləşdirilərək belə bir fikir irəli sürülür ki, iqtisadi fəaliyyətin elə birinci mərhələsi məhz məşğulluqla bağlıdır.

Dissertasiya işinin birinci fəslində qeyd edilir ki, məşğulluq sosial-iqtisadi fəaliyyətin məcmusu olmaqla bərabər, həm də bu prosesdə iştirak edən insanlar arasındakı münasibətləri tənzimləyən bir sistemdir. Məqsədyönlü fəaliyyət nəticəsində tükənməz, artan ehtiyacların ödənilməsi prosesində insanlar arasında onların düşüncə və məqsədləri əsasında yaranan münasibətlər məşğulluq münasibətlərini özündə əks etdirir. Bundan əlavə qeyd edilir ki, məşğulluq iqtisadi kateqoriya kimi, real gerçəklikdə iş qüvvəsi daşıyıcılarının iş yerləri arasında bölünməsi və onların istehsal vasitələri ilə birləşməsi üzrə olan ictimai iqtisadi münasibətləri əks etdirir.

"Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda dövlətimizin müəyyən etdiyi siyasət, məşğulluq sahəsində insanların hüquqları, məşğulluğun tənzimlənməsi, məşğulluq sahəsində həmkarlar ittifaqlarının iştirakı, işaxtaranlarla işəgötürənlərin qanunla müəyyən olunan münasibətləri və digər mühüm məsələlərə ətraflı olaraq aydınlıq gətirilmişdir. Həmin qanunda məşğulluq anlayışının müasir tərifi aşağıdakı kimi müəyyən olunmuşdur:

"Məşğulluq – Azərbaycan Respublikası vətəndaşlarının, Azərbaycan Respublikasında daimi yaşayan və vətəndaşlığı olmayan şəxslərin və

əcnəbilərin (bundan sonra vətəndaşların) Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan və bir qayda olaraq onlara qazanc (gəlir) gətirən fəaliyyətidir”.[1]

Dissertasiyanın birinci fəslində iş qüvvəsinə tələbatın təhlili zamanı rəqabətin xüsusi bir amil olduğu qeyd olunur. Bir tərəfdən, rəqabət tələbatın genişlənməsinə səbəb olur: rəqabət kapitalın yığım miqdarını təmin edir və bunun nəticəsində istehsala əlavə iş qüvvəsinin cəlb olunmasına imkan yaradır. O biri tərəfindən isə, rəqabət iş qüvvəsinə tələbatı azaldan amil kimi çıxış edir: istehsala çəkilən xərclərin azalması nəticəsində iş qüvvəsinin istehsaldan azad olunmasında və onun əmək bazarında təklifinin artmasına səbəb olur. Deməli, rəqabətin eyni zamanda paralel, iqtisadi konyukturaya görə tələbatın genişlənməsi, yaxud azalması meyli üstün olur.

Əmək bazarında iş qüvvəsinin təklifi və ona olan tələbat arasında nisbət əmək bazarının konyunkturunu müəyyən edir ki, bunun da üç növü ola bilər: 1) əmək bazarında müəyyən keyfiyyətli əmək təklifinin çatışmazlığı –- əmək defisiti; 2) əmək bazarında çoxlu sayda işsizin olması və müvafiq olaraq müəyyən keyfiyyətli əmək təklifin artıqlığı – izafi əmək; 3) əməyin kəmiyyət və keyfiyyətinə olan tələbatın onun təklifinə uyğun olması – tarazlıq.

Bununla yanaşı, isin bu fəslində müasir şəraitdə məşğulluq və işsizlik münasibətlərinə yanaşmalar öz əksini tapmış, məşğulluq siyasətinin işlənib hazırlanmasında nəzəriyyələrdən istifadə edilməsi yolları göstərilmişdir. Həmçinin müxtəlif dövrdə yaşamış klassiklərin Karl Marкsın, Con Meynard Кeynsin, Amerika iqtisadçı alimləri Milton Fridmendin, Pol Saumelsonun, C.Helbreyt, T.Veblen, Maltusun və digərlərinin bu problemə müxtəlif baxışları şərh edilmişdir.

Xüsusilə bu barədə Keysin və Maltusun fikirləri daha maraqlıdır. Maltusun fikrincə əhalinin artım sürəti işçi qüvvəsinə olan tələbi üstələyir və nəticədə işsizlik yaranır. Keyns isə işsizliyi işçi qüvvəsinə olan tələbin çatışmazlığı ilə əlaqələndirir. Təbii ki, yalnız işsizliyi şərh etməklə olmur. Makroiqtisadiyyatda işsizlik özünü əsasən bir neçə formada əks etdirir.
Friksion işsizlik – Əmək qabiliyyətinə malik olan əhali öz iş yerlərini könüllü sürətdə dəyişərkən yeni iş yeri tapana qədər işsiz qalırlar. Bu cür işsizlik friksion işsizlik adlanır.

---

[1] Azərbaycan Respublikasının sosial təminat qanunvericiliyi (normativ-hüquqi aktlar toplusu). 2007-ci ilin mart ayınadək olan əlavə və dəyişikliklərlə. Məşğulluq haqqında Azərbaycan Respublikasının Qanunu, 2 iyul 2001-ci il. Bakı: Qanun, 2007, s. 17

Struktur işsizlik – Bir az öncə qeyd etdiyimiz kimi istehsal texnologiyasında baş verən dəyişikliklər işçi qüvvəsinə olan tələbi əsaslı sürətdə dəyişir. Elə ixtisaslar olur ki, onlara olan tələb azalır. Yeni ixtisaslar tələb edən iş yerlərinin tələblərinə uyğun olmayan işçi qüvvəsi işsiz qalır.

Tsiklik işsizlik – Bu işsizlik daha çox iqtisadi böhranlar zamanı istehsalın durğunluğu nəticəsində yaranır ki, cəmiyyət tərəfindən müxtəlif maddi məhsullara, əmtəələrə və xidmətlərə olan tələb azaldıqda məşğulluq ixtisara salınır. Nəticədə işsizlik yaranır.

İşsizliyin bir forması da var ki, o da natamam işsizlik adlanır. İşsizliyin bu forması əsasən müəssisə bağlandığı zaman işçi qüvvəsinin işsiz qalması nəticəsində baş verir. Ümumi formada məşğulluq əmək qabiliyyətli əhalinin istehsal prosesində iştirakını və fəaliyyətini xarakterizə edir.

Dissertasiya işinin ikinci fəsli **"Naxçıvan regionunda əhali məşğulluğunun müasir vəziyyətinin təhlili"** adlanır. Bu fəsildə Azərbaycan və Naxçıvan regionunun demoqrafik vəziyyəti öyrənilmiş, burada əhali və işçi qüvvəsinin təkrar istehsalı və onun məşğulluğa təsiri qiymətləndirilmiş, kənd yerlərində əmək ehtiyatları, əmək potensialı və onlardan istifadə geniş təhlil edilmişdir. Bu fəsildə həmçinin müasir şəraitdə Naxçıvan regionunda əhali məşğulluğunun səviyyəsi və təhlilinə geniş yer verilmişdir.

Respublikada demoqrafik vəziyyəti araşdırmaq üçün əhalinin sayının dəyişilməsi dinamikasını nəzərdən keçirilmişdir. Məlum olmuşdur ki, ölkə əhalisinin sayı ilbəil artmaqdadır. Bu artım həm şəhər əhalisinin, həm də kənd əhalisinin artımı hesabına olmuşdur. 2011-ci ildə respublika üzrə əhalinin sayı 2000-ci illə müqayisədə 1078,3 min nəfər (13,4%) artaraq 9111,1 nəfərə çatmışdır. Şəhərdə bu artım 722,2 min nəfər (17,6%), kənd yerlərində isə 356,1 min nəfər və ya (9,7%) olmuşdur. Kənd yerlərində əhalinin sayının şəhərə nisbətən az artmasının əsas səbəbi son illərdə kənd əhalisinin Bakıya və respublikanın digər şəhərlərinə axını ilə əlaqədar olmuşdur. 2000-2011-ci illər ərzində şəhər əhalisi 1,7 dəfə, kənd əhalisi isə 1.09 dəfə artmışdır. Bu da şəhər əhalisinin daha sürətlə artması şəhərlərin sayının çoxalması və kənd əhalisinin şəhərə axını ilə əlaqədardır.

Həmçinin tədqiqat apardığımız Naxçıvan regionunda əhalinin sayının dinamikası nəzərdən keçirilmişdir. Həmin tendensiya Naxçıvan MR-da da özünü büruzə vermişdir. Belə ki, burada 2000-2011-ci illərdə əhalinin sayı 12,1% artaraq 358,8 min nəfərdən 402,4 min nəfərə, o cümlədən şəhər yerlərində 10.2% artaraq 96,2 min nəfərdən 101.6 min nəfərə, kənd yerlərində isə 8.7% artaraq 262,6 min nəfərdən 285,7 min nəfərə çatmışdır.

Maraqlı haldır ki, son 20 ilin, yəni 1990-2011-ci illərin sosial-iqtisadi çətinliklərinə baxmayaraq bu dövrdə burada əhalinin sayı 31.6%

artaraq 305.7 min nəfərdən 402,4 min nəfərə, o cümlədən şəhər yerlərində 31.2% artaraq 88,9 min nəfərdən 116,7 min nəfərə, kənd yerlərində isə 35.1% artaraq 211,6 min nəfərdən 285.7 min nəfərə çıxmışdır. Bu vəziyyət sosial-demoqrafik amillərlə yanaşı bir tərəfdən Naxçıvanın Ermənistan tərəfdən blokadaya alınması ilə bağlıdırsa, digər tərəfdən də burada əhalinin tarixən yaranıb formalaşmış, öz torpaqlarına bağlılıq ənənəsi, çətin anda torpaqlarının düşməndən qorumaq əzmi, torpağı qoyub qaçmağın qeyrətdən olmaması və s. bağlıdır.

Demoqrafik vəziyyətin qənaətbəxş mənzərəsi ilk növbədə iqtisadi inkişafın və sosial vəziyyətin ürəkaçan olmasından daha çox asılı olan bir prosesdir. Bu mütənasiblik Muxtar Respublikamızda da özünü qabarıq şəkildə büruzə verməkdədir. Heç şübhəsiz ki, durmadan artan əhali sayı, günbəgün yüksələn doğum səviyyəsi muxtar respublikada əldə olunmuş dinamik sosial iqtisadi inkişafın məntiqi nəticəsidir.

Demoqrafiya siyasəti nəsillərin normal təkrar istehsalının ardıcıl surətdə həyata keçirilməsinin təmin edilməsinə yönəlmiş iqtisadi, sosial və hüquqi tədbirlər sistemindən ibarət olmaqla, əhalinin bütün sosial-demoqrafik təbəqələrinin köklü mənafelərinə toxunur. Ailə-nikah, doğum, ölüm, təbii artım, adamların sağlamlığının mühafizəsi və möhkəmləndirilməsi, əhalinin məşğulluq və həyat səviyyəsinin yaxşılaşdırılması, ömrünün uzadılması, miqrasiyası və s. bu kimi prosesləri özündə birləşdirən demoqrafiya siyasətində başlıca məqsəd demoqrafik hadisələrə təsir göstərən ən mühüm amilləri nəzərə alaraq, cəmiyyətin və onun hər bir üzvünün mənafeyinə uyğun olan, əhalinin normal təkrar istehsalı prosesini təmin edən şərait yaradılmasına nail olmaqdır. [2]

Ölkənin demoqrafik inkişaf vəziyyətini xarakterizə edən mühüm göstəricilərdən biri də ölüm səviyyəsidir. Müsbət haldır ki, hazırda respublikamız əhalinin, xüsusilə də bir yaşınadək diri doğulan uşaqların hər 1000 nəfərinə düşən ölüm səviyyəsinə görə MDB ölkələri arasında ən axırıncı yeri tutur. Bu göstərici Azərbaycanda 9,3 nəfərdir. Doğulanların gözlənilən ölüm uzunluğu göstəricisinə görə də Azərbaycan MDB ölkələri arasında Gürcüstan Respublikası ilə birlikdə 1-2-ci yerləri bölüşdürürlər. Naxçıvan Muxtar Respublikası üzrə demoqrafik göstəriciləri aşağıdakı cədvəldən görmək olar.

Naxçıvan MR-da əhalinin cins və yaş qrupları üzrə bölgüsünü araşdırarkən 1999-cu ilə nisbətən 2009-cu ildə 0-14 yaş əhali arasında azalma müşahidə olunmuşdur. 15-29, 60-69 yaş əhali arasında artım, 30-30

[2] Məmmədov A.İ. Kənd təsərrüfatının iqtisadiyyatı. Bakı, 1992, s. 10

yaş arasında azalma və 40-59 və 69-80 yaşdan yuxarı əhali arasında isə artım müşahidə edilmişdir.

**Cədvəl 1**

**Naxçıvan Muxtar Respublikası üzrə demoqrafik göstəricilər (2010-2011)**

| Demoqrafik göstəricilər | Nəfərlə | | Min nəfərlə | | analoji nisbət |
|---|---|---|---|---|---|
| | 2011-ci il | 2010-cu il | faizlə 2011-ci il | 2010-cu il | |
| Əhalinin sayı | 410101 | 402397 | 410,1 | 402,4 | 101,9 |
| Ümumi artım | 7704 | 5050 | 19,0 | 12,6 | 152,6 |
| Təbii artım | 8072 | 5743 | 19,9 | 14,3 | 140,6 |
| Doğulanlar | 10116 | 7852 | 24,9 | 19,6 | 128,8 |
| Ölənlər | 2044 | 2109 | 5,0 | 5,3 | 96,9 |
| o cümlədən 1 yaşa qədər uşaqlar | 12 | 12 | 1,3 | 1,5 | 100,0 |

**Qeyd**: Naxçıvan Muxtar Respublikası Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Demoqrafik inkişaf vəziyyətini səciyyələndirən ən mühüm göstəricilərdən biri də əhalinin nikah və boşanma səviyyəsindən ibarətdir. Rəsmi qeydə alınmış nikah və boşanmaların ümumi əmsallarını nəzərdən keçirərkən 2000-2011-ci illərdə respublikada nikahların sayı xeyli artaraq əhalinin hər 1000 nəfəri üçün 5,0 nəfərdən 8,9 nəfərə qədər və ya 43,8% artdığını görürük. Bu rəqəm kənd yerlərində 9,0 şəhər yerlərində 8,8-ə bərabər olmuşdur. Boşanma hallarının sayı isə əksinə artmağa başlamışdır. Son 10 ildə 0,7-dən 1,0 qədər yüksəlmişdir. Şəhər yerlərində bu göstərici 1,4, kənd yerlərində 0,4 olmuşdur. Naxçıvan Muxtar Respublikasında isə, əgər 1990-cı ildə 2120 nikah bağlanmışdırsa, 2011-ci ildə bu göstərici 1.5 dəfə artaraq 3172 nikah olmuşdur.

Müasir dövrdə yaranmış demoqrafik vəziyyətə təsir edən mühüm amillərdən biri də əhalinin miqrasiyasıdır. Statistik məlumatlardan göründüyü kimi rəsmi miqrasiya edənlərin 55,1%-ni qadınlar, 54,9%-ni kişilər təşkil etmişdir. Bu rəqəm şəhər yelərində qadınlar – 56,7%, kişilər – 43,3%, kənd yerlərində müvafiq olaraq, 52,7-48,3% olmuşdur. Ən çox miqrasiya edənlər əmək qabiliyyətli əhali olmuşdur ki, onların da xüsusi çəkisi bütün miqrantların fonunda 81,7% olmuşdur. Onu da qeyd etmək lazımdır ki, bu göstəricilər rəsmi göstəricilərdir. Reallıqda isə bu göstəricilər daha yüksəkdir.

Aqrar sahədə əmək ehtiyatlarının tərkibini öyrənərkən ilk növbədə əmək ehtiyatı ilə əməkqabiliyyətli əhali arasındakı həddi araşdırmaq vacibdir. Məlumdur ki, "əmək ehtiyatları" dedikdə, əməkqabiliyyətli əhali

ilə yanaşı, öz əməyini istehsal proseslərinə daxil edə bilən, fizioloji və ruhi cəhətdən sağlam yeniyetmələrin və əməkqabiliyyətli yaşdan yuxarı şəxslərin məcmusu başa düşülür [3] Tədqiqat obyekti olan Naxçıvan regionunda əmək ehtiyatlarının hazırkı durumunu nəzərdən keçirək:

**Cədvəl 2**

**2000-2011-ci illərdə Muxtar Respublikada əmək ehtiyatları, min nəfər**

| | 2000 | 2005 | 2011 |
|---|---|---|---|
| əmək ehtiyatları-cəmi | 217,2 | 238,5 | 267,4 |
| əmək qabiliyyətli yaşda əmək qabiliyyətli əhalinin sayı | 210,4 | 231,5 | 260,4 |
| iqtisadiyyatda məşğul olan əmək qabiliyyətli yaşdan yuxarı şəxslər | 6,3 | 6,4 | 6,7 |
| iqtisadiyyatda məşğul olan yeniyetmələr | 0,5 | 0,6 | 0,3 |

**Qeyd:** Naxçıvan Muxtar Respublikası Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəldən göründüyü kimi, 2011-ci ildə Muxtar respublika üzrə 267,4 min nəfər əmək ehtiyatı mövcuddur. Bu göstərici 2005-ci illə müqayisədə 40,2 min nəfər və ya 20,1% artmışdır. əmək ehtiyatlarından 260,4 min nəfərini əmək qabiliyyətli yaşda əmək qabiliyyətli əhali, 6,7 min nəfərini əmək qabiliyyətli yaşdan yuxarı əhali, 0,3 min nəfəri isə məşğul yeniyetmələdir. Qeyd etmək lazımdır ki, iqtisadiyyatda məşğul olan əmək qabiliyyətli yaşdan yuxarı əhalinin sayı 2005-ci ilə nisbətən 0,8% artsa da, iqtisadiyyatda məşğul olan yeniyetmələrin sayı isə, əksinə 44,07% azalmışdır. Kənd təsərrüfatında islahatların aparılmasında əsas məqsəd istehsal münasibətlərinin təkmilləşdirilməsi əsasında adamları torpağa daha da yaxınlaşdırmaqdan, istehsal proseslərindən bu və ya digər səbəbdən kənarda qalan əməkqabiliyyətli əhalini faydalı əməyə qovuşdurmaqdan, işsizliyin tədricən aradan götürülməsi üçün təminatlı sosial müdafiə sistemini yaratmaqdan ibarətdir. Bu baxımdan respublikanın kənd təsərrüfatında əmək potensialından səmərəli istifadə edilməsinə yönəldilən müxtəlif təsərrüfat formalarının təşkili və geniş fəaliyyət göstərməsi xüsusi əhəmiyyətə malikdir. [4] 2011-ci ildə qeyri-dövlət sektorunda çalışanlar

---

[3] Əhmədova A.H. Azərbaycan regionlarında iqtisadiyyatın dayanıqlı inkişafı. Bakı: Elm, 2009, s. 123

[4] Quliyev C.B. Sosial yönümlü bazar münasibətləri şəraitində əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasının qlobal problemləri // “Himayədar” jurnalı, 2005, №8, s. 96

arasında 3186.4 min nəfər sərbəst məşğul əhali qeydə alınmışdır. Belə ki, özəl sektorda məşğul əhalinin xüsusi çəkisi 2005-ci ildəki 68,2 faizdən 2011-ci ildə 73,6 faizə çatmışdır. Bu prosesin inkişafı iqtisadiyyatın qeyri-dövlət sektorunun xüsusi çəkisinin imkan vermişdir. Naxçıvan regionunda 2005-ci illə müqayisədə 2011-ci ildə kənd təsərrüfatı sahəsində işləyənlərin sayı 6,4 faizdən artaraq 6,7 faiz olmuşdur. Bu da aqrar sahədə məşğulluq probleminin hər zaman əsas məsələ olaraq qalmasına zəmin yaradır. Aparılan araşdırmalar göstərir ki, son dövrlər regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi istiqamətində dövlət tərəfindən silsilə tədbirlər həyata keçirilməkdədir. Bu tədbirlər, ilk növbədə regionlarda məşğulluğun səviyyəsinin yüksəldilməsinə və işsizliyin səviyyəsinin aşağı salınmasına əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2004-cü il tarixli 24№li fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)” əhlinin iqtisadi aktivliyinin yüksəldilməsinə əhəmiyyətli dərəcədə təsir göstərmişdir.

Dissertasiya işinin **“Naxçıvan regionunun məşğulluğunun yüksəldilməsi istiqamətləri” adlanan** üçüncü fəslində Naxçıvan regionunda əhalinin məşğulluğu və işsizliyin səviyyəsi, əmək bazarını xarakterizə edən göstəricilər və əmək bazarının formalaşması üzrə prioritet istiqamətlər, kənd təsərrüfatında kadrlara tələbat, hazırlıq sistemlərinin təkmilləşdirilməsi yolları kimi önəmli məsələlər öz həllini tapmışdır. İşdə həmçinin Naxçıvan regionunda məşğulluğun yüksəldilməsi istiqamətləri əksini tapmışdır. 2005-ci ilə nisbətən ildə, 2011-ci ildə, yəni 5 il ərzində iqtisadi fəal əhalinin sayı 9,5% artmışdır. 2005-ci ildə 4186.5 min nəfər təşkil edən əhalinin sayı artaraq 2011-ci ildə 4587.4 min nəfərə çatmışdır. Kənd yerlərində də iqtisadi fəal əhalinin sayı dinamik olaraq artmışdır. Statistik məlumatlara əsasən, 2011-ci ildə Azərbaycanda kənddə yaşayan 4281,1 min nəfər əhalinin 2118,9 min nəfəri iqtisadi fəal əhali təbəqəsidir. Bunlardan 2003,6 min nəfəri məşğul əhalidir ki, burada məşğulluğun səviyyəsi 93,0-dir. Belə bir vəziyyət Naxçıvan MR-də də müşahidə olunmuşdur.

Naxçıvan Muxtar Respublikasında 2000-ci ildə 361,4 min nəfər əhali artaraq 2011-cu ildə 406,2 min nəfərə çatmışdır. 2011-ci ildə iqtisadi fəal əhalinin sayı isə 173,8 min nəfərdən artaraq 211,8 min nəfərə çatmışdır ki, bunlardan da 211,7 min nəfəri iqtisadiyyatda məşğul olanlardır. Onların 39,8 min nəfəri dövlət sektorunda, 171,9 min nəfəri özəl sektorda çalışanlardır. Məşğulluq xidməti orqanlarında rəsmi işsiz statusu alanların sayı isə 52 min nəfər təşkil etmişdir.

Cədvəl 3

**2000-2011-ci illərdə Naxçıvan Muxtar Respublikası üzrə əmək bazarının əsas sosial-iqtisadi göstəriciləri**

| | 2000 | 2005 | 2011 |
|---|---|---|---|
| Əhalinin orta illik sayı, min nəfər | 361,4 | 380,7 | 406,2 |
| İqtisadi fəal əhalinin sayı, min nəfər | 173,8 | 180,3 | 211,8 |
| İqtisadiyyatda məşğul olanların sayı, min nəfər | 168,0 | 172,4 | 211,7 |
| o cümlədən mülkiyyət formaları üzrə: | | | |
| dövlət | 39,7 | 40,6 | 39,8 |
| qeyri-dövlət | 128,3 | 131,8 | 171,9 |
| Məşğulluq xidmətləri orqanlarında rəsmi işsiz statusu alan şəxslər, nəfər | 5812 | 7904 | 52 |
| onlardan işsizliyə görə müavinət alanlar | 136 | 271 | - |
| İqtisadiyyatda muzdla işləyənlərin sayı, min nəfər | 41,7 | 52,7 | 83,4 |
| Məşğul əhalinin bir nəfərinə düşən ÜDM, manat | 505,1 | 1773,8 | 5532,9 |
| İqtisadiyyatda işləyənlərin orta aylıq əməkhaqqı, manat | 29,2 | 86,0 | 302,6 |

**Qeyd**: Naxçıvan Muxtar Respublikası Statistika Komitəsinin materialları əsasında tərtib edilmişdir.

2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq təminatına dair Dövlət Proqramında da kadr potensialının ərzaq məhsulları ilə təminatında mühüm rola malik olduğunu və kadrların professional hazırlıqlarının artırılmasına diqqətin artırılmasının vacibliyi həmçinin, aqrar sahənin kadrlarla təminatının daha da yaxşılaşdırılması istiqamətində görülən işlərin sürətləndirilməsi qeyd edilmişdir.

Məlum olduğu kimi Azərbaycanda əmək bazarında kəskin şəkildə işsizlik problemi yoxdur. Amma əmək bazarının keyfiyyət problemləri var, əmək ehtiyatları iqtisadiyyatımızın tələblərinə cavab vermir və bu problemlər həll edilməlidir. Bir ixtisas üzrə kifayət qədər kadrlar olur ki, onlara ehtiyac yoxdur, amma başqa bir sahədə kadrlar çatışmır. Buna görə də Azərbaycana xaricdən əmək ehtiyatlarının axını davam edir. Bu kadr siyasəti əmək məhsuldarlığının azalmasına və gəlir itkisinə səbəb ola bilər. Məhz buna görə də hazırda müəssisələrin kadr ehtiyatlarının ixtisas səviyyəsi və peşəkarlıq getdikcə daha böyük əhəmiyyət kəsb edir.

Kənd təsərrüfatı istehsalçısı süni şəkildə, daha doğrusu öz maraqları çərçivəsində məşğulluq səviyyəsini artıra və azalda bilir. Belə ki, kənd təsərrüfatı məhsulları bazarında qiymətlərin səviyyəsi istehsalçısını qane etmədikdə o, əmək haqqını aşağı salmaqla məşğulluq səviyyəsini azaldır və əksinə. Göründüyü kimi bu amil işsizlik səviyyəsinə də öz təsirini göstərir. İstehsalçısı əmək bazarında iş qabiliyyətinə, peşə və ixtisasına uyğun işin

qiymətini tədqiq etməklə alacağı əmək haqqını faktiki aldığı əmək haqqı ilə müqayisə edə bilir. Bu isə onun üçün nəticə çıxarmaqda, əlverişli qərarlar qəbul etməkdə və səmərəli iş yeri müəyyənləşdirmək də əsas şərtdir. [5]

1996-cı ildən başlayaraq, ölkədə iqtisadi problemlərin həllinə, yeni iş yerlərinin açılmasına, məşğulluğun təmin olunmasına, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəldilən bir sıra Dövlət Proqramları, Fərmanlar o cümlədən "Azərbaycanda kiçik və orta sahibkarlığa Dövlət Yardımı Proqramı (1997-2000-ci illər)", "Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı (2003-2006-ci illər)" qəbul olundu. Bu tədbirlər nəticəsində regionların sosial vəziyyəti getdikcə inkişaf etməyə başlasa da bir çox problemlər hələ də həllini tapmamış qalırdı. Bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkə regionlarının inkişafı üçün ardıcıl olaraq bir sıra mühüm proqramlar "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" imzalamışdır ki, bunlar da ölkədə ərzaq təminatının yaxşılaşdırılmasına, aqrar sahibkarlığın inkişafına, yerli ərzaq növlərinin istehsalı və istehlakına üstünlük verilməsinə, regionlarda yeni iş yerlərinin açılmasına, kənd əhalisinin məşğulluq və həyat səviyyəsinin yüksəlməsinə xidmət edir. Bundan əlavə, "Yoxsulluğun azaldılması və davamlı inkişaf üzrə Dövlət Proqramı" çərçivəsində məşğulluq siyasəti və əmək bazarının tənzimlənməsi sahəsində aşağıdakı istiqamətlərdə tədbirlərin: məşğulluq sisteminin inkişaf etdirilməsi və işsizlərin sosial müdafiəsinin gücləndirilməsi; kadr hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılması; əmək münasibətlərinin tənzimlənməsinin təkmilləşdirilməsi; əmək bazarının monitorinqi prosesinin gücləndirilməsi; həssas qrupların məşğulluq imkanlarının genişləndirilməsinin həyata keçirilməsini ön plana çəkir.

Region əhalisinin işlə təmin edilməsi, məşğulluğun artırılması, işsizliyin azaldılması məqsədilə Naxçıvan iqtisadi rayonunda təsərrüfatların taxılçılıq, üzümçülük, meyvəçilik, ətlik-südlük, südlük ətlik maldarlıq, qoyunçuluq, ətlik, ətlik-yumurtalıq quşçuluq sahələri üzrə ixtisaslaşmasını məqsədəmüvafiq hesab edirik. Tərəvəzçilik, şəkər çuğunduru, baramaçılıq, tütünçülük, kartofçuluq sahələri isə əlavə və yardımçı sahə kimi inkişaf

---

[5] Əhmədov N.H. Naxçıvan iqtisadiyyatının prioritetləri: iqtisadi artım, dinamik inkişaf. Bakı: Sabah, 2008, s. 68

etdirilə bilər. İqtisadi rayonda yuxarıda qeyd edilən istiqamətlərdə ixtisaslaşmış orta və iri təsərrüfatların yaradılması məqsədəuyğundur.

Beləliklə, Respublikada və Muxtar Respublikada işsizliyin qarşısının alınması və bu problemin həll edilməsi məqsədi ilə əhalinin yaşadığı bütün ərazilər üzrə məşğulluq proqramının işlənib hazırlanması və onun həyata keçirilməsi dövlət nəzarətinə götürülmüşdür. Müasir dövrdə işsizliyin aradan qaldırılmasının əsas yolu kiçik və orta müəssisələrin yaradılmasına və inkişafına hərtərəfli şərait yaradılması ilə bağlı olduğundan dövlət səviyyəsində bu sahənin inkişafına daha da diqqət artırılmışdır.

Dissertasiya işinin "**Nəticə**" hissəsində aqrar sahədə əhalinin məşğulluq potensialından səmərəli istifadə edilməsinin daha da gücləndirilməsi sahəsində əməli işlərin əhatə dairəsinin genişləndirilməsi və bu məqsədlə, aqrar sahənin davamlı inkişaf proqramlarının qəbul olunması və həyata keçirilməsi zəruri hesab edilir.

Aqrar sahədə məşğulluq imkanlarının artırılması üçün torpaqların münbitliyinin qorunması istiqamətində sistemli işlərin görülməsi, şoranlaşma ilə mübarizə sahəsində tədbirlər, aqrar sahədə texniki vasitələrdən istifadənin səmərəliliyinin artırılması davam etdirilməlidir.

Aqrar sahədə struktur dəyişikliklərinin müasir bazar münasibətlərinə uyğun aparılması və məşğulluğun yüksəldilməsinə təsirinin gücləndirilməsi məqsədilə bu sahədə yeni strukturların yaradılması, kənd əhalisinin gəlirlərinin yüksəldilməsində mühüm rol oynayan kənd təsərrüfatı məhsullarının satışının müasir infrastrukturunun inkişaf etdirilməsi zəruridir.

Nəticə bölməsində həmçinin dövlət tərəfindən aqrar iqtisadiyyatın inkişafına ayrılan investisiya və maliyyə vəsaitlərinin, başlıca olaraq konkret məqsədli proqramlar üzrə və eləcə də kredit formasında müəssisələrin müasir texnika və qabaqcıl texnologiya əsasında yenidən qurulması əhəmiyyətli tədbirlər kimi irəli sürülür.

**Dissertasiyanın işlənməsi müddətində mövzu üzrə iddiaçının aşağıdakı elmi məqalələri çap olunmuşdur:**

1. İşsizlik və onun formalarının elmi-metodoloji təhlili // Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji Xəbərləri, 2011, № 31, s. 40-45.
2. Kənd təsərrüfatında kadr potensialı və hazırlıq sistemlərinin təkmilləşdirilməsi // Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun Elmi əsərləri, 2011, № 4, s. 243-248.
3. Əmək bazarında məşğulluq səviyyəsi və əmək ehtiyatları potensialının təyin edilməsində əhalinin cins-yaş tərkibi üzrə strukturunun müəyyən edilməsinin xüsusiyyətləri // AMEA İqtisadiyyat İnstitutunun Elmi Əsərləri, 2012, № 1, s. 388-393.

4. Regionlarda kənd əhalisinin məşğulluğunun təmin edilməsi yolları // "İpək yolu" Azərbaycan Universitetinin elmi jurnalı, 2012, № 1, s. 29-34.
5. Səmərəli məşğulluğun sosial-iqtisadi problemləri // Az.ETKTİ və Tİ- nin Elmi Əsərləri, 2012, №1, s. 129-131.
6. Kənd təsərrüfatının əmək bazarında işçi qüvvəsinə tələbat, ixtisaslaşdırılmış kadrların hazırlanması və proqnozlaşdırılması "Əmək və sosial problemlər". Elmi əsərlər toplusu, Bakı, 2012, № 2(10), s. 84-89.
7. Əmək bazarı ,əmək ehtiyatlarının səmərəliliyi və iqtisadi inkişafı "Əmək və sosial problemlər". Elmi əsərlər toplusu, Bakı, 2012, № 3(11), s. 133-137.
8. Əmək bazarında məşğulluğun iqtisadi-demoqrafik aspektlərinin tədqiqinin nəzəri-metodoloji əsasları // Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji Xəbərləri, 2012, № 33, s. 73-77.
9. Əmək bazarında məşğulluq və əmək ehtiyyatlarının xarakterik xüsusiyyətləri / Azərbaycan Elmi Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və təşkili institutunun 50 illik yubilleyinə həsr olunmuş "Aqrar iqtisadiyyatının aktual problemləri" mövzusunda beynəlxalq elmi praktik konfransın materialları, Bakı, 2012, s. 574-576.
10. Əmək bazarında əhali məşğulluğunun yüksəldilməsinin əsas istiqamətləri / Milli iqtisadiyyatın inkişafı və səmərəliliyinin yüksəldilməsi. Beynəlxalq elmi-praktik konfransın materialları (27-28 iyun 2012-ci il), Bakı, 2012, s. 970-972.
11. Naxçıvan MR-da əmək bazarının mövcud durumu və işsizlik probleminin həlli istiqamətləri // Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri, 2012, № 2, s. 276-281.
12. Рынок труда и воспроизводство квалифицированных рабочих в сельском хозяйстве / Международная научно-практическая конференция, Днепропетровск, 2012, № 7, стр. 26-30.
13. Современное состояние рынка труда в АПК и его регулирование // "Перспективы науки", Тамбов, 2012, № 4(31), стр. 93-96.
14. Regionlarda aqrar sahənin dinamik inkişafı və əmək ehtıyatlarından səmərəli istifadə olunması // Odlar Yurdu Universiteti beynəlxalq elmi-praktik konfransın materialları, Bakı, 2013, s. 276-281.
15. Naxçıvan regionunda demoqrafik vəziyyət və onun məşğulluğa təsiri // "İpək yolu" Azərbaycan Universitetinin Elmi Jurnalı, 2013, № 1, s. 95-101.
16. Роль малого предпринимательства в решении проблем занятости / Odlar Yurdu Universitetinin Akademik Əhməd Əkbər oğlu Mahmudovun anadan olmasının 90 illik yubileyinə həsr olunan beynəlxalq elmi-praktik konfransın materialları, Odlar Yurdu Universitetinin Elmi Pedoqoji Xəbərləri, Bakı, 2013, № 36, s. 205-207.

**Новруза Гейс кызы Адилова**

## Рынок труда Нахчыванского региона и направления повышения занятости населения (на основе материалов аграрного сектора)

## РЕЗЮМЕ

Во введении обосновывается актуальность темы диссертации, характеризуется степень изученности проблемы, ставятся цель и задачи, раскрывается научная новизна исследования, обосновывается практическая значимость.

Первая глава диссертации называется «Рынок труда в современных условиях и научно-методологические основы занятости». В этой главе исследованы теоретические и методологические основы рынка труда и занятости, проанализированы особенности зарубежных и местных рынков труда, их субъекты и сегменты, также раскрыта сущность и роль инфраструктуры рынка труда.

Вторая глава диссертации называется «Анализ современного состояния занятости населения Нахчыванского региона». В этой главе всесторонне исследуется демографическое состояние сельского населения Нахчыванского региона, так же анализируется половозрастной состав населения, темпы роста, внутренняя и внешняя миграция населения, механический прирост и современное состояние экономически активного и неактивного населения.

Третья глава диссертации называется «Направления повышения занятости Нахчыванского региона». Здесь в основном исследуется уровень безработицы и занятости в Нахчыванском регионе, анализируются показатели характеристик рынка труда, определены приоритетные области формирования рынка труда. Так же изучается состояние уровня спроса на работников в сельскохозяйственном секторе в настоящее время, уровень их профессиональной подготовки, повышение уровня занятости Нахчыванской области, выдвигаются предложения по созданию новых рабочих мест в регионе.

В заключении диссертации даются выводы и научно-обоснованные предложения по усовершенствованию подходов в решении задач по оценке уровня занятости и безработицы в Нахчыванском регионе.

**Novruza Qeys qızı Adilova**

## Nakhchivan region's labor market and the direction of increasing employment (on the basis of the agricultural sector by region)

## SUMMARY

In the introduction the actuality of the topic of the dissertation is based, the degree of studied of problem is characterized, a purpose and tasks is put, the scientific of research open up, practical meangfull is shown.

The first chapter of the thesis is called "Labor market in a modern conditions, scientific and methodological basis of employment". This chapter examined the theoretical and methodological foundations of the labor market and employment, analyzes the features of foreign and local labor markets, their subjects and segments, also reveals the essence and role of the labor market infrastructure.

The second chapter is called "The analysis of the current state of employment Nakhchivan region". In this chapter thoroughly investigated the demography of rural population Nakhchivan region, as well as analyzes the gender and age composition of the population, the rate of growth, internal and external migration, mechanical growth of population, the current status of the economically active and inactive population.

The third chapter of the thesis is called "Direction of increasing employment Nakhchivan region". There are mainly investigated the level of unemployment and employment in Nakhchivan region, analyzes the characteristics of the labor market indicators, identifies priority areas of labor market. Studied the status of the level of demand for workers in the agricultural sector at the present time, the level of their training, increasing employment Nakhchivan region, and put forward proposals to create new working place in the region.

At the conclusion of the dissertation are the findings and evidence-based suggestions for improvement approaches in the task of assessing the level of employment and unemployment in the region of Nakhchivan.

Çapa imzalanmışdır: 10.02.2014
Formatı: 60/84, 16/1
Sifariş № 68
Sayı: 100

***AMEA Naxçıvan Bölməsinin “Tusi” nəşriyyatında çap edilmişdir.***

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**НАХЧЫВАНСКОЕ ОТДЕЛЕНИЕ**

*На правах рукописи*

**НОВРУЗА ГЕЙИС КЫЗЫ АДИЛОВА**

# РЫНОК ТРУДА НАХИЧЕВАНЬСКОГО РЕГИОНА И НАПРАВЛЕНИЯ ПОВЫШЕНИЯ ЗАНЯТОСТИ НАСЕЛЕНИЯ

**(на основе материалов аграрного сектора)**

**Специальность: 5311.01 – Организация и управление предприятиями**

## АВТОРЕФЕРАТ

**диссертации на соискание ученой степени доктора философии по экономики**

**НАХЧЫВАН – 2014**